

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

*Qəzet 1921-ci ildən çıxır*

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 67 (23.479)

*9 may 2020-ci il, şənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiymәti 20 qəpik


## “Müstəqil Azərbaycan dövlətinin qurucusu və banisi” mövzusunda onlayn konfrans keçirilmişdir





Heydər Əliyev Muzeyində ümummilli lider Heydər Əliyevin anadan olmasının 97-ci ildönümü münasibətilə keçirilən onlayn konfransı AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev açaraq bildirmişdir ki, ulu öndər Azərbaycana siyasi rəhbərliyinin hər iki dövründə misilsiz xidmətləri ilə tarixə milli dövlətçiliyimizin qurucusu və banisi kimi adını yazdırmışdır. Ötən əsrin 60-cı illərində respublikamız keçmiş ittifaqda ən axırıncı yerlərdən birini tutsa da, görkəmli dövlət xadiminin Azərbaycana rəhbərliyindən sonra bütün sahələr inkişafa qovuşdu, qısa zamanda respublikamız aqrar-sənaye ölkəsinə çevrildi. Bu dövrdə Azərbaycanda yüzlərlə təhsil, səhiyyə, mədəniyyət müəssisələri tikilmiş, yeni sənaye müəssisələri yaradılmışdır. 1993-cü ildə respublikamız çətin sınaqlarla üz-üzə qalanda xalqımız haqlı olaraq yeganə xilaskar hesab etdiyi bu dahi şəxsiyyətin yenidən siyasi rəhbərliyə gəlməsinə israrla nail oldu. Hətta dünyanın bir sıra nüfuzlu siyasət, elm, mədəniyyət xadimləri deyirdi ki, Heydər Əliyev Azərbaycanda hakimiyyətdə olsaydı, respublika bu vəziyyətlə qarşılaşmaz, xain qonşular cəsarət edib Azərbaycana qarşı belə mövqe tuta bilməzdi. Görkəmli dövlət xadimi siyasi hakimiyyətinin ikinci mərhələsində də müdrikliyi və qəti mövqeyi ilə ölkəmizi məhv olmaqdan xilas etdi, müstəqilliyimizi qoruya bildi, atəşkəsə nail oldu, “Əsrin müqaviləsi” bağlanıldı. Dahi şəxsiyyət Azərbaycan Respublikasını dünya dövlətləri içərisində lider ölkə səviyyəsinə qaldıra bildi, onun hərtərəfli inkişafını təmin etdi, gələcək inkişafı üçün strateji xətti müəyyənləşdirdi. Qədim diyarımız Naxçıvanın muxtariyyətinin qorunmasında, erməni işğalından müdafiəsində və bugünkü inkişafa nail olmasında isə ümummilli liderimizin xidmətləri əvəzsizdir.

AMEA-nın birinci vitse-prezidenti, akademik İsa Həbibbəyli “Ümummilli lider Heydər Əliyevin dövlətçilik təlimi və müasir dövr” mövzusunda çıxışında vurğulamışdır ki, görkəmli dövlət xadimi Heydər Əliyev XX əsrin yetişdirdiyi nadir dünya liderlərindən biridir. O, keçmiş SSRİ-nin siyasi bürosunda idarəetmədə təmsil olunmaqla yanaşı, uzun müddət Azərbaycana rəhbərlik etmişdir. Bu siyasi fəaliyyətin ilk mərhələsində xalqını gələcək müstəqilliyə hazırlamaq üçün böyük işlər görmüş, milli oyanışda mühüm rol oynamışdır.

Qeyd olunmuşdur ki, 1991-1993-cü illərdə Naxçıvanda yaşayan ulu öndər Heydər Əliyevin sayəsində Azərbaycanın gələcək müstəqilliyinə hədəflənmiş bir sıra mühüm tarixi əhəmiyyətli siyasi qərarlar qəbul edilmişdir.

Ümummilli liderin müstəqillik illərindəki fəaliyyətinə toxunan akademik İsa Həbibbəyli Onun daxili və xarici siyasətdə tutduğu məqsədyönlü istiqamətin tarixinə nəzər salmış, müstəqil Azərbaycan dövlətinin tanınmasında, əlaqələrin qurulmasında mühüm addımlar atdığını bildirmişdir. Hazırda Heydər Əliyev siyasi xəttinin ölkə başçısı cənab İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini bildirən akademik görkəmli dövlət xadiminin elm, təhsil sahəsində çalışanlara diqqət və qayğısından da bəhs etmiş, dahi şəxsiyyətin qayğıkeşliyinin bu gün elm adamları tərəfindən yüksək qiymətləndirildiyini vurğulamışdır.

Naxçıvan Dövlət Universitetinin rektoru, dosent Elbrus İsayev “Ulu öndər Heydər Əliyev və Naxçıvan Dövlət Universiteti” mövzusunda çıxış edərək bildirmişdir ki, görkəmli dövlət xadimi ilk dəfə hələ Azərbaycana rəhbərlik etdiyi birinci dövrdə Naxçıvan Dövlət Universitetində olmuşdur. Naxçıvan Muxtar Respublikasının yaradılmasının 50 illiyi ilə əlaqədar bu qədim diyara gələn ulu öndər 1974-cü il 4 oktyabrda Naxçıvan Dövlət Pedaqoji İnstitutunun müəllimləri və tələbə heyəti ilə görüş zamanı Naxçıvanda mövcud Pedaqoji İnstitutun bazasında müstəqil dövlət universitetinin yaranması zərurəti haqqında ilk dəfə olaraq fikirlər irəli sürmüşdür. 1990-1993-cü illərdə, çətin blokada şəraitinin və ozamankı Azərbaycan iqtidarının yaratdığı mürəkkəb vəziyyətə baxmayaraq, dahi rəhbər Heydər Əliyev Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri kimi ali təhsil sahəsində inkişafa nail olmuşdur.

Diqqətə çatdırılmışdır ki, ulu öndərin 1992-ci il 12 noyabrda Naxçıvan Dövlət Universitetinin 25 illik yubileyindəki dərin məzmunlu geniş nitqi, sözün geniş mənasında, ovaxtkı çətin şəraitdə respublikamızda ali təhsilin inkişaf etdirilməsi yollarına həsr olunmuş ciddi bir məramnamədir. 1997-ci ildə universitetin 30 illik yubileyi münasibətilə ölkə Prezidentinin universitetin kollektivinə təbrik məktubu ünvanlaması qədim diyarın əsas elm, təhsil və mədəniyyət mərkəzi sayılan Naxçıvan Dövlət Universitetinə verilmiş yüksək qiymətin, göstərilən etimadın, bəslənilən böyük ümidlərin parlaq ifadəsidir.

Vurğulanmışdır ki, ulu öndər Heydər Əliyevin müəyyən etdiyi təhsil strategiyasının muxtar respublikada uğurla davam etdirilməsi nəticəsində möhkəm maddi-texniki bazaya, güclü kadr potensialına malik olan inkişaf etmiş ali təhsil ocağı yaradılmışdır. Rektor bildirmişdir ki, universitetin çoxminli kollektivi muxtar respublikada aparılan məqsədyönlü təhsil siyasətini rəhbər tutaraq bundan sonra da Heydər Əliyev ideyalarının işığında inkişafı və müasirləşməni fəaliyyətinin əsas meyarı hesab edir.

Naxçıvan Müəllimlər İnstitutunun rektoru, pedaqogika üzrə fəlsəfə doktoru Azad Novruzov “Ümummilli lider Heydər Əliyev və təhsil siyasəti” mövzusunda çıxışında bildirmişdir ki, Azərbaycanın təhsil tarixində intibah dövrü kimi qiymətləndirilən 1969-1982-ci illərdə təhsildə çox böyük nailiyyətlər əldə olunmuşdur.

Bildirilmişdir ki, böyük səyi ilə müstəqillik illərində ölkəmizdə beynəlxalq standartlara uyğun milli təhsil islahatlarına başlanıldı ki, həmin təhsil siyasəti bu gün də ölkəmizdə və muxtar respublikamızda uğurla davam etdirilir. Hazırda ölkəmizdə 31 dövlət ali təhsil müəssisəsi fəaliyyət göstərir. Ali təhsil sahəsindəki inkişafın mənzərəsini fəaliyyət göstərdiyim Naxçıvan Müəllimlər İnstitutunun timsalında göstərməklə ali təhsilin müstəqillik dövründəki inkişafı haqqında təsəvvür yaratmaq olar.

“Naxçıvan” Universitetinin rektoru, filologiya üzrə fəlsəfə doktoru Nurlana Əliyeva “Ali təhsilli kadrların hazırlanmasında ulu öndər Heydər Əliyevin rolu” mövzusunda çıxışında bildirmişdir ki, ümummilli lider sovet Azərbaycanına rəhbərlik etdiyi illərdə ölkədə 5 yeni ali təhsil müəssisəsi açılmış və ali məktəblərdə təhsil alanların sayı 70 mindən 100 minə qədər artmışdır. Məhz dahi rəhbərin təşəbbüsü və birbaşa himayəsi nəticəsində 1970-ci ildən başlayaraq hər il 800-900 nəfər gənc SSRİ-nin nüfuzlu ali məktəblərində təhsil almağa göndərilmişdir ki, bu da respublikanın milli kadr potensialının və ali təhsilli kadrların hazırlanması, yetişməsi sahəsində çox mühüm işdir. Respublikaya birinci rəhbərliyi dövründə Azərbaycanda ali təhsil müəssisələrinin sayı 12-dən 17-yə çatmışdır.

Ulu öndər Heydər Əliyev müstəqillik illərində də elm və təhsilin inkişafına kompleks şəkildə yanaşmışdır. İndi ölkəmizdə fəaliyyət göstərən ümumi, texniki-peşə, orta ixtisas, ali təhsil, eləcə də əlavə təhsil müəssisələrinin geniş şəbəkəsi, güclü elmi-pedaqoji kadr korpusu öz mənbəyini məhz keçən əsrin 70-ci illərində dahi şəxsiyyətin rəhbərliyi altında təhsil sahəsində aparılan uzaqgörən və məqsədyönlü siyasətdən almış, həyata keçirilən genişmiqyaslı təhsil quruculuğu işi gələcək inkişafın güclü təməlini qoymuşdur.

Konfransda AMEA-nın müxbir üzvləri – AMEA Naxçıvan Bölməsinin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun direktoru Fəxrəddin Cəfərlinin, bölmənin İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun direktoru Əbülfəz Quliyevin, Təbii Ehtiyatlar İnstitutunun direktoru Tofiq Əliyevin, Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun şöbə müdiri Vəli Baxşəliyevin və İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun direktor müavini, filologiya üzrə elmlər doktoru, professor Hüseyn Həşimlinin çıxışları dinlənilib.

Tədbirin sonunda muzeyə virtual ekskursiya təşkil olunub.

✍ **Səbuhi HƏSƏNOV**

## “Decoria” Alış-Veriş Mərkəzi istifadəyə verilib

***Dünən “Gəmiqaya Holdinq” Şirkətlər İttifaqı tərəfindən Naxçıvan şəhərində yaradılan “Decoria” Alış-Veriş Mərkəzi istifadəyə verilib.***





Bu münasibətlə keçirilən tədbirdə Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat naziri Tapdıq Əliyev çıxış edərək bildirib ki, muxtar respublikada özəl bölmənin inkişafına dövlət dəstəyi daim diqqət mərkəzində saxlanılır, hər il yeni iş yerləri açılır, əhalinin maddi rifah halı yüksəldilir. Sosial-iqtisadi və eləcə də digər sahələrdə müşayiət olunan dinamika muxtar respublikada inkişafın davamlı xarakter almasının daha bir təsdiqidir. Ali Məclis Sədrinin rəhbərliyi ilə muxtar respublikada aparılan uğurlu iqtisadi siyasət nəticəsində geniş sahibkarlar sinfi formalaşıb və bu təbəqə sosial-iqtisadi inkişafın aparıcı qüvvəsinə çevrilib. Sürətli inkişaf bütün sahələrdə, o cümlədən ən müasir ticarət infrastrukturunun yaradılmasında da özünü aydın şəkildə göstərir. Təsadüfi deyil ki, iqtisadiyyatda əldə olunmuş uğurlarda ticarət sektorunun da inkişafı və genişlənməsi vacib rol oynayır.

Vurğulanıb ki, “Gəmiqaya Holdinq” Şirkətlər İttifaqı tərəfindən yaradılan “Decoria” Alış-Veriş Mərkəzi bu istiqamətdə həyata keçirilən dövlət siyasətinin davamlı xarakter daşıdığının daha bir göstəricisidir. Mərkəzin yaradılmasına 1 milyon 600 min manat vəsait sərf olunub. Ərazisi 1800 kvadratmetrdən 4000 kvadratmetrə çatdırılan mərkəzdə muxtar respublika əhalisinin tələbatına uyğun olan ən keyfiyyətli və sərfəli qiymətlərlə təklif edilən bütün növ məişət əşyalarının, elektrik materialları və avadanlıqlarının, müxtəlif növ mebellərin, avtomobil aksesuarlarının satışı bölmələri, anbar və digər xidmət sahələri yaradılıb. Mərkəzin 3000 kvadratmetri satış bölməsinin, 1000 kvadratmetri anbar və ofis bölmələrinin payına düşür. Burada yerli məhsullarla yanaşı, bir sıra xarici ölkələrin istehsalı olan 8500 çeşiddən çox məhsulun satışı həyata keçiriləcək.

Sonra tədbir iştirakçıları mərkəzdə satışa çıxarılan məhsullarla əyani tanış olublar.

Məlumat üçün bildirək ki, yeni istifadəyə verilən “Decoria” Alış-Veriş Mərkəzindən mətbəx, yemək dəstlərini, elektrik materialları və avadanlıqlarını, xırdavat, təmir-tikinti alətlərini, plastik boruları, divar kağızlarını, yataq və bağça mebel dəstlərini, taxta və seyf qapılarını, hədiyyəlik əşyaları, məişət texnikalarını, dəftərxana ləvazimatlarını, təmizlik məmulatlarını, təhlükəsizlik vasitələri və geyimlərini, boya və izolyasiya məhsullarını, hamam və avtomobil aksesuarlarını və digər malları sərfəli qiymətə əldə etmək mümkündür.

Mərkəzdə kredit bölməsi də fəaliyyət göstərir ki, müvafiq sənədləri təqdim etməklə 3 aydan 6 ayadək kreditlə məhsul almaq olar. Qarşıya qoyulan əsas məqsəd, ilk növbədə, yerli istehsal mallarının satışını təşkil etmək, satılan malların çeşid bolluğunu və keyfiyyətini diqqətdə saxlamaqdır. Burada yerli məhsullarla yanaşı, Almaniya, Hollandiya, Türkiyə, Çin və digər ölkələrin istehsalı olan məhsulların da satışı həyata keçirilir.

Qeyd edək ki, mərkəzdə nağd, eləcə də pos-terminal vasitəsilə alış-verişin həyata keçirilməsi mümkündür. Müştərilərin rahatlığı üçün ikitərəfli giriş-çıxışı yaradılan mərkəzin geniş avtodayanacaq yerləri də mövcuddur. Həyətyanı sahə abadlaşdırılıb, yaşıllıqlar salınıb. Mərkəzdə istilik və soyutma, təhlükəsizlik kameraları, yanğından mühafizə sistemləri quraşdırılıb. Hazırda burada 50 nəfər daimi işlə təmin olunub, işçilər gündəlik yemək və mövsümi geyimlə təmin edilirlər.

✍ **Nail ƏSGƏROV**

*9 May Faşizm üzərində Qələbə Günüdür*

## Azərbaycanlılar 1941-1945-ci illər müharibəsində tarixi qələbənin qazanılmasında böyük qəhrəmanlıqlar göstərmişlər

1941-1945-ci illər müharibəsinə cəlb olunmuş keçmiş müttəfiq respublikalar içərisində o zaman istər ümumi əhaliyə nisbətən əsgər sayına, istərsə də döyüşən əsgərlərin təltif olunması faizinə görə Azərbaycan ən öncül sıralarda dayanırdı. Belə ki, müharibədə 700 minə yaxın azərbaycanlı, başqa sözlə, respublika əhalisinin hər 5 nəfərindən biri cəbhədə vuruşmuş, onların 450 mini və ya 65 faizi orden və medallarla təltif edilmişdir. Azərbaycandan 130 nəfər "Sovet İttifaqı Qəhrəmanı" kimi yüksək ada layiq görülmüşdür.

Müharibədə fədakarlıq göstərən azərbaycanlılardan ibarət təşkil edilmiş 416-cı "Taqanroq", 402-ci "Azərbaycan", 223-cü "Belqrad" və 77-ci "Simferopol" diviziyaları şərəfli döyüş yolu keçmiş, soydaşlarımızın, təxminən, yarısı ağır döyüşlərdə qəhrəmancasına həlak olmuşdur. 402-ci diviziya Naxçıvanda formalaşdırılaraq cəbhəyə yola salınmışdır. Həmyerlilərimiz 223-cü diviziyanın tərkibində Macarıstan və keçmiş Yuqoslaviyanın faşistlərdən təmizlənməsində igidlik göstərmişlər. Bu da qürurvericidir ki, 416-cı diviziya Şimali Qafqazdan Berlinədək ağır döyüş yolu keçmiş, diviziyanın əsgərləri Berlində qələbə bayrağını ilk qaldıranların sırasında olmuşlar.

Müharibənin başlandığı gün – 1941-ci il iyunun 22-də Naxçıvan Muxtar Respublikasından 6492 nəfər orduya yollanmışdı. Bütövlükdə, 29 min 500 muxtar respublika sakini 1941-1945-ci illər müharibəsində iştirak etmişdir. Müharibəyə könüllü gedənlərdən yüzə yaxını qadınlar idi. Cəbhəyə yollanan naxçıvanlıların hər iki nəfərindən biri – 16 minə yaxın insan həlak olmuşdur. Üç həmyerlimiz – Abbas Quliyev, Nəcəfqulu Rəfiyev və Qəzənfər Əkbərov SSRİ-nin ən yüksək mükafatına – "Sovet İttifaqı Qəhrəmanı" adına, Rəhim Rəhimov "Şöhrət" ordeninin hər üç dərəcəsinə layiq görülmüşdür. 600 nəfər isə müxtəlif orden və medallarla təltif edilmişdir. 102 nəfər "Şöhrət" ordeninin ayrı-ayrı dərəcələri, 105 nəfər birinci və ikinci dərəcəli "Böyük Vətən Müharibəsi", 315 nəfər "Qırmızı Ulduz", 29 nəfər "Qırmızı Bayraq" ordenləri ilə təltif edilmişdir. Həmin illərdə azərbaycanlılar arxa cəbhədə də fəallıqları ilə seçilmişlər. Onlar ordunun ehtiyacını ödəmək üçün qüvvələri səfərbərliyə almış, gecəni gündüzə qataraq çalışmış, qələbənin qazanılmasına öz töhfələrini verməyə səy göstərmişlər.

Tarixi qələbənin əldə edilməsində Azərbaycan nefti xüsusi rol oynamışdır. Belə ki, həmin illərdə Sovet İttifaqında hasil olunan neftin dörddəüç hissəsi, aviasiya benzininin və yüksəkkeyfiyyətli sürtkü yağlarının 85-90 faizi Azərbaycanın payına düşürdü. Qələbənin təmin edilməsində həlledici rol oynamış sovet ordusunun tank və təyyarələrinin böyük əksəriyyəti Azərbaycan neftinin hesabına hərəkətə gətirilirdi. Bakı nefti olmasaydı, bu müharibədə hərbi əməliyyatları uğurla başa çatdırmaq mümkün olmazdı. Görkəmli akademik Yusif Məmmədəliyevin 1941-1945-ci illərdə neft kimyası sahəsində etdiyi ixtiralar isə, ümumilikdə, sovet Azərbaycanının o dövrdə qələbəsi idi.

Azərbaycan Respublikasının sənaye müəssisələri, xüsusən maşınqayırma zavodları silah və sursat istehsalı ilə məşğul idi. Müharibə dövründə Azərbaycanda 130 növ silah və sursat istehsal olunaraq cəbhəyə göndərilirdi. Bununla yanaşı, cəbhəyə kömək məqsədilə digər imkanlardan da istifadə olunurdu. Həmin dövrdə təkcə Naxçıvan Muxtar Respublikasından müdafiə fonduna 12 kiloqram qızıl və gümüş, 180 milyon 89 min manat nağd pul, 70 min ton ət və digər ərzaq məhsulları, 160 min dəstdən çox isti paltar, 10 mindən artıq bağlama göndərilmişdir.

Vətən yolunda xidməti olan insanlardan heç vaxt qayğısını əsirgəməyən Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev deyirdi: ***"Veteranlar bizim qızıl fondumuzdur. Onlar hər cür qayğıya və hörmətə layiqdirlər. Azərbaycanın bütün ictimaiyyəti, bütün Azərbaycan xalqı bilməlidir ki, İkinci Dünya müharibəsinin veteranları bizim ən aziz, ən mötəbər insanlarımızdır. Onlara qayğı göstərmək, hörmət etmək, onların bütün problemlərini həll etmək bizim dövlətimizin və hər bir dövlət orqanının, hər bir Azərbaycan vətəndaşının borcudur".***

Ümummilli liderimizin Azərbaycanda yenidən siyasi hakimiyyətə qayıdışından sonra 9 May respublikamızda "Qələbə Günü" kimi rəsmiləşdirilmiş, dövlət bayramları sırasına daxil edilmiş, müharibə veteranlarının sosial müdafiəsi ildən-ilə gücləndirilmişdir. Onların xatirəsinin əbədiləşdirilməsi istiqamətində sistemli və ardıcıl tədbirlər görülmüş, imtiyazları və statusları bərpa olunmuşdur.

1941-1945-ci illər müharibəsində igidlik göstərən müharibə veteranları bu gün də hərtərəfli dövlət qayğısı ilə əhatə edilmişlər. ***"Biz veteranlarımıza çox mehriban münasibət bəsləyirik. Onlara vaxtaşırı mənzillər, istirahət üçün sahələr, pul mükafatları ayrılır. Onlar xalqımızın fəxridir. Biz həlak olanların xatirəsinə də ehtiramla yanaşırıq və əminik ki, gənc nəslin qəhrəmanlıq və Vətənə məhəbbət ənənələrini davam etdirməsi üçün onlar məhz bu cür fədakar qəhrəmanlıq və Vətənə məhəbbət ruhunda tərbiyə olunmalıdırlar"***, – deyən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev də 1941-1945-ci illər müharibəsi iştirakçılarına, arxa cəbhə veteranlarına xüsusi diqqət və qayğı göstərir. Ölkə Prezidenti cənab İlham Əliyevin "1941-1945-ci illərdə İkinci Dünya müharibəsində iştirak etmiş şəxslərə, həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə birdəfəlik maddi yardım verilməsi haqqında" 2020-ci il 24 aprel tarixli Sərəncamı bu kateqoriyadan olan vətəndaşların xüsusi diqqət və qayğı ilə əhatə olunduqlarının növbəti təzahürüdür. İkinci Dünya müharibəsi iştirakçılarına və digər şəxslərə hər il Qələbə Günü ərəfəsində verilən birdəfəlik maddi yardımın məbləği də mütəmadi artırılır. Bu istiqamətdə növbəti artım kimi, ötənilki illə müqayisədə hazırda həmin şəxslər üçün nəzərdə tutulan birdəfəlik yardımın məbləği də 50 faiz artırılmışdır.

"Böyük Vətən müharibəsi iştirakçılarının "Böyük Vətən müharibəsində Qələbənin 75 illiyi (1945-2020)" Azərbaycan Respublikasının yubiley medalı ilə təltif edilməsi haqqında" 2020-ci il 1 may tarixli Sərəncam bu təbəqədən olan vətəndaşlara dövlət başçısının xüsusi diqqət və qayğısının növbəti göstəricisidir.

Ölkəmizin hər yerində olduğu kimi, Naxçıvan Muxtar Respublikasında da müharibə veteranlarına xüsusi qayğı ilə yanaşılır, onların sosial müdafiəsi gücləndirilir, veteranlar sanatoriya və kurortlara göndərilir, minik avtomobilləri ilə təmin olunurlar. Muxtar respublikada 1941-1945-ci illərdə böyük şücaət və qəhrəmanlıq göstərmiş insanların keçdiyi şərəfli döyüş yolu gənc nəslin mənəvi, hərbi-vətənpərvərlik tərbiyəsində mühüm amilə çevrilmişdir. Hər il 9 May – Qələbə Günü muxtar respublikada geniş şəkildə qeyd olunur. 1941-1945-ci illər müharibəsi qurbanlarının xatirəsinə ucaldılmış abidələr önündə tədbirlərin keçirilməsi, müharibə veteranlarına hədiyyələrin verilməsi və digər tədbirlər bu kateqoriyadan olan insanlara göstərilən diqqətin əyani ifadəsidir.

1941-1945-ci illər müharibəsinin qələbə ilə başa çatdırılmasında həlledici rol oynayan Azərbaycan xalqı müharibədə şərəfli döyüş yolu keçmiş oğul və qızlarımızın tarixi şücaətlərini, habelə arxa cəbhədə fədakarlıqla çalışanların xidmətlərini heç vaxt unutmur. 1941-1945-ci illər, eləcə də Azərbaycan Vətən Müharibəsi iştirakçılarının şərəfli ömür yolu sonrakı nəsillər üçün də bir məktəbdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun dediyi kimi: ***"Bu gün cəmiyyətimizdə müharibə veteranlarına böyük hörmət və ehtiram vardır. Onların döyüşlərdə göstərdikləri rəşadət, müharibədən sonrakı bərpa və quruculuq illərində çəkdikləri zəhmət Vətənə xidmət nümunəsi – həyat dərsidir. Vətəni sevmək, Vətən torpağını qorumaq və mənsub olduğu ölkəni inkişafa qovuşdurmaq dərsidir. Gənc nəsil bu dərsi minnətsizcəsinə özündən sonrakı nəsillərə ötürməli, nəsillər arasındakı varislik ənənələri davam etməlidir".***

**"Şərq qapısı"**

## Əsrə yaxın xatirələr və ya barıt qoxulu söhbətlər

***Bəşəriyyəti böyük fəlakətə sürükləyən İkinci Dünya müharibəsi haqqında çox eşitmişəm, hər dəfə mavi ekranda o dövrü əks etdirən filmləri seyr edərkən döyüşlərdə iştirak edənlərin müharibə ilə bağlı xatirələri mənim üçün maraqlı olub. Mayın günəşli günlərinin birində yolumu Şahbuz rayonundan salmağımın məqsədi də məhz qocaman çinar qədər dayanətli, dözümlü olan 97 yaşlı İkinci Dünya müharibəsi veteranı Məhəmməd Həsənovla görüşməkdir.***

Yolboyu düşüncəyə elə dalıram ki, saatın ötüb keçdiyinin, yolu necə qət etdiyimizin fərqinə varmıram. Təxminən, 30 dəqiqə sonra mənzilbaşına yetişirik. Maşından düşüb zəngi basıram. Çox çəkmir ki, cavan bir oğlan qapını açaraq məni içəriyə dəvət edir. Hal-əhval tutduqdan sonra öyrənirəm ki, xoşgəldin edən müharibə veteranı Məhəmməd Həsənovun nəvəsi Abbasdır. Aramızda keçən qısa dialoq zamanı aydın olur ki, aidiyyəti təşkilatların nümayəndələri tez-tez babasına baş çəkməyə gəlir. Məhəmməd kişi hərdən nəvələrini başına yığır, olanlardan-keçənlərdən, müharibədə yaşananlardan danışır. Eloğlumuzun döyüşlərdə göstərdiyi şücaətlər, igidlikləri barədə söhbətlər rayon sakinlərinin də dilindən düşmür.

Eyvanda əyləşən Məhəmməd baba, həyat yoldaşı və oğlu məni qonaqpərvərliklə qarşılayırlar. İlk baxışdan gümrah görünməyən bu nurani qocanın qolunda bu yaşına rəğmən güc olduğunu əlimi hərarətlə sıxanda hiss edirəm. Çöhrəsində ilıq bir təbəssüm gəzdirən müharibə veteranının üzündə o ağrılı-acılı illərin izlərini hiss etmək çətin deyil. Bəyaz saçlı Məhəmməd baba özünü yenə əvvəlki kimi şux, gümrah hiss edir. Üzərində 97 illik ömründə qazandığı orden və medalların ağırlığını daşıyan pencəyi isə onun necə şərəfli bir həyat yolu keçdiyini gözlər önünə sərir.

Hal-əhval tutduqdan sonra çay süfrəsi arxasında müharibə veteranı ilə keçmişə, o ağrılı-acılı illərə, azərbaycanlı igid oğulların keçdiyi döyüş yoluna nəzər salırıq. Deyir, həmin illər yaddaşımda silinməz izlər buraxıb. Üstündən uzun zaman keçməsinə baxmayaraq, hələ də o qanlı-qadalı günləri xatirəmdən çıxara bilmirəm. Bəzən yuxularımda da müharibənin dəhşətlərini, mənimlə çiyin-çiyinə vuruşan cəbhə yoldaşlarımı görürəm. Düzdür, ağrı-acısını fikirləşəndə insanın qəlbi sızlayır, ancaq düşünəndə ki, doğma Vətənin uğrunda vuruşmağa, el-obanı qorumağa gedirsən, onda heç bir dəhşət səni qorxuda bilmir.

Söhbət zamanı öyrənirəm ki, 1923-cü il iyulun 1-də dünyaya göz açan qəhrəman eloğlumuz 19 yaşında – 1942-ci ilin oktyabr ayında, məhz bir amal uğrunda, torpağını, xalqını qorumaq üçün cəbhəyə üz tutub. Həyatının ən coşqulu dövrünü, gənclik illərini ağrılı-acılı anlar yaşamaqla keçirib, ömrünün 3 ilini müharibəyə qurban verib. O, cəbhəyə könüllü olaraq gedib, şücaətlə döyüşüb, yaralansa da, çox cəfalar çəksə də, dözümünü itirməyib, məşəqqətlərə sinə gərərək Vətəninə, elinə, obasına əsl qəhrəman, vətənpərvər eloğlu kimi qayıdıb. O, müharibə illərindən, keçdiyi döyüş yolundan ürəkdolusu danışır:



– Müharibə başlayan zaman yaşımın az olmasına rəğmən digər həmyaşıdlarım kimi mən də Vətənin keşiyində dayanmaq, onu müdafiə etmək üçün ata-anamdan xeyir-dua alıb cəbhəyə yollandım. Şimali Qafqazın Mozdok şəhərindən ozamankı Çexoslovakiyanın paytaxtı Praqanın azad edilməsinədək olan əksər döyüşlərdə iştirak etdim. İki dəfə yaralansam da, döyüş meydanını tərk etmədim. Mənimlə eyni cəbhədə döyüşənlər arasında azərbaycanlılar az deyildi. Hamımızın bir amalı, bir məqsədi var idi: qələbə çalıb, xoş xəbərlə doğma elimizə, obamıza qayıdaq. Bununla yanaşı, qələbənin asan əldə edilməyəcəyini də yaxşı bilirdik. Qarşımızda dayanan düşmənin döyüş texnikasının potensialı, silah-sursatının çoxluğu bütün dünyaya bəlli idi. Lakin bu bizi qətiyyən qorxutmur, əksinə, daha əzm və şücaətlə vuruşurduq. Həmin döyüşlərdə xalqımız yüzlərlə mərd oğul, qəhrəman insan itirdi. O igidlərdən bir neçəsi elə mənimlə çiyin-çiyinə döyüşdüyü vaxt həlak oldu. Gözümün önündə cərəyan edən bu dəhşətli anlar düşmənə qarşı nifrətimi birə-beş artırırdı. Nəhayət, uzun sürən döyüşlərdən sonra gözlədiyimiz gün gəlib çatdı. 1945-ci ilin 9 may günü bizim, ümumilikdə isə xalqımızın əsl bayram günü kimi tarixə düşdü. Qələbə bayramı!.. Həmin gün biz azad Praqa şəhərində qələbəni böyük sevinclə qeyd etdik. Aradan çox zaman keçsə də, o günü eyni qürur hissi ilə xatırlayıram. Hər il mayın 9-da biz veteranlar qələbə bayramını böyük sevinclə qarşılayırıq. Çünki müharibədə çəkdiyimiz əziyyətlər hədər getməyib.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev ölkəmizə rəhbərlik etdiyi bütün dövrlərdə müharibə iştirakçılarına böyük qayğı ilə yanaşıb. Məhz ulu öndərin sayəsində yüksək təqaüdlə təmin olunmuşuq. Hər il cənab Prezidentimizin sərəncamı ilə birdəfəlik maddi yardımın ayrılması da ümummilli liderimizin yoluna böyük sədaqətin, biz veteranlara göstərilən dərin hörmət və ehtiramın nəticəsidir. Ölkə Prezidentinin bu il aprelin 24-də imzaladığı Sərəncam ilə növbəti dəfə birdəfəlik maddi yardım aldıq. Bütün bunlar biz veteranları ürəkdən sevindirir və dövlətimizə qarşı məhəbbətimizi daha da artırır.

Məhəmməd baba qeyd edir ki, muxtar respublikamızda müharibə veteranlarına göstərilən hərtərəfli diqqət və qayğı sayəsində sosial problemlərimiz həllini tapır, yubileylərimiz qeyd olunur, bizimlə görüşlər təşkil edilir. Hər il qələbənin ildönümləri ilə bağlı doğma diyarımızda müxtəlif tədbirlərin keçirilməsi, veteranların həmin tədbirlərdə iştirakının təmin edilməsi yaşlı nəslin nümayəndələrinə, müharibə qəhrəmanlarına verilən yüksək dəyərin təzahürüdür.

Müharibə veteranı deyir ki, indi hamımızın bir yaralı yeri var, ürəyimizdə Qarabağ nisgili buz bağlayıb. Torpaqlarımızın düşmən tapdağında olması, ayrı-ayrı dövlətlər tərəfindən tarixi gerçəkliyə etinasız münasibət göstərilməsi, erməni vəhşiliyinin görməzdən gəlinməsi biz veteranları hədsiz dərəcədə hiddətləndirir. Lakin son illər qazandığımız uğurlar da göstərir ki, doğma yurdumuzun azad ediləcəyi, mərd oğullarımızın zəfər çalacağı gün, böyük qələbə uzaqda deyil. 2016-cı ilin Aprel döyüşlərində və 2018-ci il Günnüt əməliyyatındakı qələbələrimiz bunu sübut etməklə hər bir azərbaycanlı kimi məni də çox sevindirdi. Həmin döyüşlərdə iştirak edən eloğullarımızın şücaəti, qətiyyəti haqqında eşidəndə ürəyim dağa döndü. Bu mənə illər öncəki faşizm üzərində qazandığımız qələbədə keçirdiyim hissləri təkrar yaşatdı.

Altı övladı, on dörd nəvəsi, on altı nəticəsi olan Məhəmməd baba ilə söhbətdən, sözün həqiqi mənasında, doymaq olmur, xatirələrini yada saldıqca insanın Vətənə məhəbbəti, el-obaya sevgisi daha da artır. Döyüşlərdə rəşadətlə vuruşduğuna görə II və III dərəcəli "Şöhrət" ordeninə, I və II dərəcəli "Böyük Vətən Müharibəsi" və "Qırmızı Ulduz" ordenlərinə, 11 medala layiq görülən Məhəmməd Həsənovun keçdiyi döyüş yolu, qazandığı zəfər bugünkü gənclərimiz üçün əsl örnək, qəhrəmanlıq məktəbidir. Böyük qələbə müjdəsi ümidi, torpaqlarımızın tezliklə azad edilməsi diləyi ilə müharibə veteranı ilə sağollaşıram...

**✍ Nail ƏSGƏROV**

# Biz var olduqca onlar yaşayacaq

***Hər il ətirli, çiçəkli may ayına yenicə qədəm qoyanda ruhumda, əhvalımda qələbə və əzmkarlıq ab-havası hökm sürür. Bəlkə də, ona görə ki, həmin ərəfədə xalqımızın qəhrəmanlıq tarixində özünəməxsus yeri olan İkinci Dünya müharibəsində qazanılan tarixi qələbəni qeyd etməyə hazırlaşırıq. Bu çətin və mübarizələrlə dolu hərb tarixinə adlarını qızıl hərflərlə yazdıran qəhrəman soydaşlarımızı böyük hörmətlə anır, əziz xatirələrini qürurla yad edirik.***

Düzdür, həmin müharibədə iştirakımız birbaşa ölkəmizin müstəqilliyi və xalqımızın suverenliyinə xidmət etmirdi. Lakin İkinci Dünya müharibəsi ümumxalq xarakteri daşıyırdı. Digər tərəfdən alman komandanlığı Bakı neftinə xüsusi önəm verir və Qafqaz uğrunda vuruşlarda Bakı üzərində nəzarəti ələ keçirmək məqsədi güdürdü. Bu mənada, müharibə sovet xalqları tərəfindən xilaskar, ədalətli, Vətən müharibəsinə çevrilmişdi. Sovet İttifaqının bütün xalqları, o cümlədən tarixboyu mübarizliyi ilə ad çıxaran Azərbaycan xalqı Vətən uğrunda müharibəyə başladı.

Dünyanın ən dəhşətli ölüm savaşı sayılan İkinci Dünya müharibəsində qazanılan və bu gün qürurla qeyd etdiyimiz qələbədə soydaşlarımızın qəhrəmanlıqları da əsaslı rol oynayıb. Bu qanlı müharibədə iştirak edən 660 mindən çox azərbaycanlının, təxminən, yarısı döyüşlərdə həlak olub. Qanlı-qadalı döyüşlərdə göstərdikləri igidliyə görə ölkəmizin 130-dan çox vətəndaşı Sovet İttifaqı Qəhrəmanı adına layiq görülüb, 170 mindən çox əsgər və zabitimiz müxtəlif orden və medallarla təltif edilib.

İkinci Dünya müharibəsində Azərbaycanın hər yerindən olduğu kimi, Naxçıvandan da minlərlə oğlan və qız iştirak edib, şücaət göstərib. Həmin çətin illər ərzində diyarımızdan müharibəyə 30 mindən artıq insan yola düşüb. Onlardan 16 minə yaxını müharibə gedən bütün ərazilərdə səngərə atılıb, qəhrəmancasına həlak olub. Döyüş meydanında hünər sərgiləyən naxçıvanlı döyüşçülərdən 600 nəfəri müxtəlif orden və medallarla, bir nəfər "Şöhrət" ordeninin hər üç dərəcəsi ilə təltif edilib. Naxçıvanın qəhrəman oğullarından 3 nəfər keçmiş SSRİ-nin ən yüksək fəxri tituluna – Sovet İttifaqı Qəhrəmanı adına layiq görülüb.

İkinci Dünya müharibəsində böyük rəşadət göstərərək Sovet İttifaqı Qəhrəmanı adına layiq görülən Vətən oğullarının qəhrəmanlıq dolu həyatı və şərəfli döyüş yolu ilə yaxından tanış olmaq üçün yolumu qəhrəman övladlarımızın, şəhidlərimizin müqəddəs adının əziz tutulduğu Xatirə Muzeyindən saldım. Hansı ki bu muzeydə müxtəlif illərdə xalqımızın qəhrəmanlıq tarixinə şərəfli səhifələr yazmış igid həmvətənlərimiz, o cümlədən Sovet İttifaqı qəhrəmanlarımız barədə ətraflı məlumat almaq mümkündür. Onlar üçün ayrılmış stendlərin önündə fəxrlə dayanıb, qəhrəmanlıq salnaməsinə bir daha nəzər salıram.

Naxçıvanın Sovet İttifaqı qəhrəmanları sırasında ***Qəzənfər Qulam oğlu Əkbərov***un adı qürurla çəkilir. Cəhri kəndinin yetirməsi olan Qəzənfər Əkbərov 1917-ci ildə dünyaya göz açıb.



Onun taleyi sonralar hərb tariximizlə bağlı olsa da, gənclik illərində yaxşı təhsil alaraq pedaqoq kimi fəaliyyət göstərmək arzusunda olub. 1940-cı ildə Naxçıvan Müəllimlər İnstitutunu bitirərək müəllimlik fəaliyyətinə başlayıb. Faşist Almaniyası SSRİ-yə hücum etdikdən sonra müharibəyə könüllü gedənlərdən biri də Qəzənfər Əkbərov olub. Cəsur döyüşçü Tbilisi topçuluq məktəbində təhsil alıb və onun qəhrəmanlıqlarla dolu döyüş yolu 1942-ci ildən Qafqaz dağlarının ətəklərindən başlayıb. Qəzənfər Əkbərov topçu komandir kimi Ukraynanın, Belarusun alman faşistlərindən təmizlənməsində fəal iştirak edib.

Onun qəhrəmanlıq salnaməsində Belarusun Volojin şəhəri xüsusi mərhələ təşkil edir. 1944-cü il avqustun 3-də şəhər ətrafında gedən döyüşlərdə Qəzənfər Əkbərov misilsiz rəşadət göstərib. Bu ağır döyüş bir neçə saat davam edib. Onun başçılığı ilə üç nəfər topçu almanların beş ağır tankına qarşı döyüşə atılıb. Qeyri-bərabər döyüşdə düşmənin 4 tankı, 60-dan çox əsgər və zabiti məhv edilib. Bu döyüşdə Qəzənfər Əkbərov qəhrəmancasına həlak olsa da, canı bahasına düşmənin hücumunu dayandırıb və bununla da öz döyüş yoldaşlarının mühasirəyə düşməsinin qarşısını alıb. Bu qəhrəmanlığına görə Qəzənfər Əkbərov ölümündən sonra Sovet İttifaqı Qəhrəmanı adına layiq görülüb.

Cəsur döyüşçünün xatirəsi Naxçıvanda əbədiləşdirilib. Doğma kəndi Cəhridə Qəzənfər Əkbərovun abidəsi ucaldılıb. Adına küçə və məktəb vardır.

Digər qəhrəmanımız – ***Abbas Şahbaz oğlu Quliyev***in mənalı ömür yolunu vərəqləyirəm. O, 1916-cı il sentyabrın 15-də Babək rayonunun Şəkərabad kəndində anadan olub. Orta məktəbi bitirdikdən sonra Bakı Pedaqoji Texnikumunda təhsilini davam etdirib. Bu qəhrəmanımız isə gənclik illərində teatr sahəsinə maraq göstərib.1937-ci ildə təhsilini başa vurduqdan sonra Naxçıvana qayıdaraq bir müddət səhnə fəaliyyəti ilə məşğul olub. Sonralar "İzvestiya" qəzeti onun barəsində belə yazacaqdı: "Naxçıvan teatrı Abbas Quliyevin şəxsində müvəqqəti də olsa səhnə xadimini itirsə də, Sovet Ordusu onun simasında bacarıqlı və fədakar zabit əldə etmişdi".



Abbas Quliyev 1941-ci ildə Sovet Ordusuna çağırılıb və Sumı topçuluq məktəbini bitirib. Cəsarəti və igidliyi ilə seçilən gənc döyüşçü kapitan rütbəsinədək yüksəlib və Dneprdən Visla çayına qədər böyük döyüş yolu keçib. 1944-cü ilin avqustunda Polşa ərazisində topçuları ilə birlikdə xüsusi tapşırıq əmri alan Abbas Quliyev döyüş şücaəti ilə yanaşı, zabit kimi hərbi biliyini də ortaya qoyub. Nəticədə, düşmənin diqqətini yayındıraraq Visla çayının sağ sahilinə keçməyə nail olub. 3 gün ərzində faşistlərlə qeyri-bərabər döyüş aparmağa məcbur olan cəsur komandir qoşunlarını maneəsiz çayı keçməsi və düşməni darmadağın etməsinə şərait yaradıb.

Onun odlu-alovlu döyüş meydanlarından gələn qələbə sədaları və qəhrəmanlıq hekayəsi dildən-dilə gəzib, bütün ölkəyə səs salıb. Təbii ki, bu qürur dolu fəaliyyət qiymətsiz qala bilməzdi. Abbas Quliyev 1945-ci il fevralın 25-də Sovet İttifaqı Qəhrəmanı adına layiq görülüb. Müharibə başa çatdıqdan sonra, 1945-ci ildə hərbi xidmətdən tərxis olunub və doğma Naxçıvanda rəhbər vəzifələrdə işləyib. Kapitan Abbas Quliyev 1997-ci il dekabrın 25-də Naxçıvan şəhərində vəfat edib.

Cəbhədən qələbə və qəhrəmanlıq xəbəri hər yana yayılan digər igid oğlumuz isə ***Nəcəfqulu Rəcəbəli oğlu Rəfiyev***dir. O, 1915-ci il martın 22-də Ordubad şəhərində anadan olub. 1935-ci ildə Sovet Ordusuna çağırılıb, 2 il sonra ali hərbi məktəbdə təhsil almağa başlayıb. Faşist Almaniyasının SSRİ-yə hücum etməsindən 4 gün keçdikdən sonra qızğın müharibə meydanına yollanıb. Nəcəfqulu Rəfiyev sürücü-mexanik, tank komandiri, tank vzvodunun komandiri kimi Cənub-Qərb, Şimali Qafqaz, 1-ci Belarus kimi odlu-alovlu cəbhələrdə faşist işğalçılarına qarşı döyüşlərdə iştirak edib. 1944-cü ilin yayında Minsk şəhəri yaxınlığında gedən döyüşlərdə o, öz rəşadətli xidmətini ortaya qoyub, Baronoviçi şəhərinin azad edilməsində şücaət və qəhrəmanlıq göstərib. Bu qəhrəmanlığına görə SSRİ Ali Soveti Rəyasət Heyətinin 1944-cü il 9 sentyabr tarixli Fərmanı ilə Nəcəfqulu Rəfiyev Sovet İttifaqı Qəhrəmanı adına layiq görülüb.



Müharibə qələbə ilə başa çatsa da, Nəcəfqulu Rəfiyevin hərb sənətinə olan marağı heç vaxt sönməyib. Qanlı müharibə illəri bitdikdən sonra müxtəlif hərbi hissələrdə qulluq edib. 1955-1959-cu illərdə Lənkəran hərbi komissarlığında şöbə rəisi, Culfa rayon hərbi komissarı işləyib. 1959-cu ildə ordudan tərxis olunaraq Azərbaycan SSR avtomobil nəqliyyatı sistemində əmək fəaliyyətini davam etdirib. Nəcəfqulu Rəfiyev 1970-ci il dekabrın 24-də vəfat edib.

Bu gün gənc nəsil onları – İkinci Dünya müharibəsi qəhrəmanlarını şəxsən tanımasa da, keçən illərə, əsrlərə baxmayaraq qəhrəmanlar həmişə qəhrəmandırlar. Onların nəsillərə örnək mənalı ömür yolu əsrlər keçsə də, xatırlanacaq. Necə ki bu gün onların əziz xatirəsi daim anılır, gənc nəslə aşılanır. Xatirə Muzeyinə ekskursiyaya gələn hər bir gəncimiz bu qəhrəmanların yolu ilə tanış olur, onların yolunu davam etdirmək ruhunda və əzmində böyüyürlər. Elə bu səbəbdəndir ki, tarixin bütün dövrlərində qəhrəmanlar, döyüş meydanında ad qazanan övladlar yetişdirən bu torpaq bu gün də Mübariz İbrahimov, Qabil Orucəliyev, Toğrul Həşimli kimi vətənpərvər və hər an doğma torpağı uğrunda canından belə, keçməyə hazır olan oğullar yetişdirir. Ruhunuz şad olsun, Vətən övladları! Nə qədər ki biz varıq, siz də daim yaşayacaqsınız! 75 il yox, 750 il keçsə belə...

**Gülcamal TAHİROVA**

# Bir döyüşçünün xatirələri



***Şərur elində bir qoca yaşayır. Bir əsrə bərabər ömür payını yaşayan bir insan. O, dünyaya Azərbaycan Xalq Cümhuriyyətinin vətəndaşı kimi gəldi, iki yaşı olanda 70 illik bir əsarətin qurbanı olan Azərbaycan SSRİ-nin övladı və gənci olaraq həyatına davam etdi. Və gənc yaşlarında həmin illər böyük Vətən dediyimiz quruluşun da qarışdığı İkinci Dünya müharibəsinin iştirakçısına çevrildi. Şərur rayon Qorçulu kənd sakini Fərman Sadiqov müharibədə iştirak etmiş 4 mindən çox şərurludan biridir.***

Fərman babanın 102 yaşı olsa da, fiziki işdən yorulmur, elə hey çalışır . Piyada gəzməyi də çox sevir. Onunla görüşə gedəndə bu zəhmətkeş baba yazın gözəl havasından istifadə edib həyətdəki ağacları suvarırdı. Deyir, ay qızım, gərək zəhməti sevəsən ki, ömrün də uzun olsun. Fərman babaya onunla müharibə illərindən həmsöhbət olmaq istədiyimizi bildirəndə bir anlıq gözləri doldu, dərindən ah çəkib söhbətə başladı:

– Təkcə Şərurdan 4 min nəfər getmişdi müharibəyə... Onlardan 2 min 218 nəfəri qayıtdı, 1789 nəfəri isə həlak oldu. Həmin dövrdə SSRİ-nin elə bir məkanı olmamışdır ki, bu vahiməli və dəhşətli müharibə həmin yerlərə aclıq, səfalət, müsibət, ölüm və göz yaşları gətirməsin.

Fərman baba deyir ki, yeddiillik kənd məktəbini bitirdikdən sonra Naxçıvan Müəllimlər İnstitutuna qəbul olub. Təhsilinin birinci ilində müharibə xəbərini eşidib, rayon hərbi komissarlığına müraciət edərək cəbhəyə könüllü yola düşüb. 1941-ci ildə Belarusda hərbi xidmətə başlayıb, bir müddət burada təlim keçdikdən, hərbin qayda-qanunlarını öyrəndikdən, silah-sursatı idarə etmək bacarığına yiyələndikdən sonra 76-cı topçu alayına göndərilib. O deyir:

– Bütün Belarus sərhədləri boyu qanlı döyüşlər gedirdi. Ölüm-dirim savaşından sonra Belarus faşistlərdən azad edildi. Komandanlığın göstərişi ilə bizi seçib Bakıya qaytardılar. Sonra Gürcüstana, oradan isə Şimali Qafqaza apardılar. 1942-ci il iyunun 28-də qoşunlarımız Terek çayı boyunca hücuma keçərək almanları 30 kilometrədək geri çəkilməyə məcbur etdi. Bu hücum zamanı çox sayda itki hesabına Kuban şəhərini düşməndən azad etdik. 1943-cü ilin avqust ayında isə azərbaycanlılardan təşkil olunmuş 416-cı diviziyanın tərkibində Taqanrok şəhərini düşməndən təmizləyə bildik.

Fərman baba onu da bildirdi ki, o, Ukrayna cəbhəsi boyu gedən döyüşlər zamanı Mariupol, Zaporojye, Dnepropetrovsk, Mogilyov, Odessa şəhərlərinin, Moldaviya, Rumıniya və Polşanın faşistlərdən azad edilməsi uğrunda gedən şiddətli döyüşlərdə də azərbaycanlılar qəhrəmanlıqlar göstəriblər. Döyüş yolu Almaniya sərhədlərinə kimi uzanan müharibə veteranı 1945-ci ilin yanvar ayında "faşist yuvasına" daxil olanlar arasında da olub.

Döyüşlərdə göstərdiyi igidliklərə görə "II dərəcəli Vətən Müharibəsi", "Zərbəçi", "Qırmızı Ulduz" ordenləri, "İgidliyə görə", "Belarusiyanın azad edilməsinə görə" və sair medallara layiq görülüb.

Müharibə veteranı bu gün onlara göstərilən diqqət və qayğıdan da ürəkdolusu danışır:

– Səksəninci illərin sonu, doxsanıncı illərin əvvəllərində respublikamıza rəhbərlik edənlər müharibə veteranlarına qayğı göstərmirdilər, bizi bütün imtiyazlardan məhrum etmişdilər. Çünki onlar tarixi bilmir, savadsızlıq ucbatından unudurdular ki, Hitler Almaniyası təkcə Rusiyanı yox, bütün dünyanı işğal etmək və öz nəzarətində saxlamaq iddiasında olmuşdur. Şükürlər olsun ki, ümummilli liderimiz Heydər Əliyev xalqımızın təkidli tələbini qəbul etdi və 1993-cü ildə yenidən hakimiyyətə qayıtdı. Ulu öndərin sayəsində nəinki İkinci Dünya müharibəsi veteranları, həmçinin müharibədə həlak olanların ailələri, arxa cəbhədə fəallıq göstərdiklərinə görə orden və medallar alanlar yenidən dövlətin tam qayğısı ilə əhatə olundular, qələbə günü ölkəmizdə qeyd olunan bayramlar sırasına salındı. Bir neçə gün bundan öncə ən kiçik nəticəm sevinclə yanıma gəldi və mənə dedi ki, ay baba, cənab Prezident yeni sərəncam imzalayıb. Bu il qələbənin 75 illiyi münasibətilə həm yubiley medalı təsis olunacaq, həm də müharibə iştirakçılarına 1500 manat birdəfəlik maddi yardım göstəriləcək.

Həmin illər yadıma düşəndə, döyüş yoldaşlarımı xatırlayanda həm qürurlanır, həm də kədərlənirəm. Qürur duyuram ona görə ki, azərbaycanlı oğulların igidlikləri həmin qanlı-qadalı illərdə də dünyaya səs salmışdı, bu gün də elədir. Kədərimin səbəbi isə müharibə veteranlarının sayının ilbəil azalmasıdır. Bircə təsəllim isə onların adlarının qorunub saxlanılmasıdır. Ölkə Prezidentinin təkcə bizim deyil, övladlarımızın da qayğısına qalması, dünyadan köçən İkinci Dünya müharibəsi iştirakçılarının övladlarının gəlir vergisindən azad edilməsi haqqında göstəriş verməsi ən böyük qayğı və vətənpərvərliyə ruhlandırmaq nümunəsidir.

Bu gün ulu öndərin davamçısı cənab İlham Əliyev dahi rəhbərin yolunu uğurla davam etdirir. Azərbaycan müstəqillik qazanandan bəri keçirilən seçkilərin hamısında iştirak edib xalqın seçiminə səs vermişəm. Ötən illərdə keçirilən prezident seçkilərinə inamla gedib cənab İlham Əliyevə səs verdim. O, xalqına, xalqı isə öz övladına həmişə dayaqdır. Mən nəvələrimdən tez-tez məlumat alıram. Onlar mənə hər an baş verən hadisələrdən danışır. Aprel döyüşlərində, Günnüt zəfərində ordumuzun necə şücaət göstərdiklərini eşitdikcə qəlbim dağa dönür. Və həmişə onlara deyirəm ki, Qarabağın azad ediləcəyi gün çox yaxındadır. Belə qüdrətli ordu 90-cı illərdə olsa idi, biz o torpaqları itirməzdik. Təəssüf ki, həmin dövrdə 70 il iliyimizi sümürən bir quruluşdan təzəcə yaxa qurtarmışdıq. Bu xain ermənilər tarixboyu belə olublar. Fürsət tapan kimi onlara çörək verəni arxadan vurublar. Müharibənin iştirakçısı olsam da, mən heç vaxt həmin dəhşətli günlər haqqında danışmağı sevməmişəm. Çünki əsas olan müharibənin başlaması deyil, qələbənin nə zaman qazanılmasıdır. Ona görə də öz nəvə, nəticələrimlə söhbətləşəndə qələbədən danışıram. Qoy övladlarımız qələbə ruhu ilə böyüsün ki, onlar da hər zaman qalib kimi yaşasınlar.

**Ramiyyə ƏKBƏROVA**

# Ali təhsil ocağı beynəlxalq əhəmiyyətli onlayn konfransda iştirak edib



Naxçıvan Dövlət Universiteti onlayn təlim və tədris üsullarına dair beynəlxalq əhəmiyyətli onlayn konfransda təmsil olunub. Ali təhsil ocağını Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı, universitetin Beynəlxalq münasibətlər və xarici dillər fakültəsinin İngilis dili və tərcümə kafedrasının müəllimi Aidə Cəlilzadə təmsil edib. Xəzər Universitetinin təşkil etdiyi konfransda Azərbaycan İngiltərə, Finlandiya, İspaniya, Macarıstan, Qazaxıstan və Özbəkistanın bir sıra universitetlərindən olan professorlar, müəllim heyəti də iştirak edib. Konfransda pandemiya ilə əlaqədar dünyanın əksər ölkələrində yaranmış təlim-tədris problemləri, onlayn təhsilə keçid, mövcud durumla bağlı hər bir ölkənin qəbul etdiyi təhsil platformaları müzakirə edilib.

Naxçıvan Dövlət Universitetinin müəllimi Aidə Cəlilzadə ali təhsil ocağında məsafədən təhsilin onlayn forması ilə yanaşı, offlayn formasının mövcudluğundan da danışıb. Bildirilib ki, KOICA şirkəti tərəfindən Naxçıvan Dövlət Universiteti üçün "Elektron təhsil şəbəkəsi və rəqəmsal multimedia" layihəsi çərçivəsində yaradılan "Öyrənmənin idarə olunması" sistemi (Learning Management System) vasitəsilə tələbələrə mühazirələr, videodərslər, sərbəst iş mövzuları çatdırılıb.

Tərəflər tələbələrin onlayn tədrisə cəlb olunması istiqamətində aparılan işlərdən danışıblar. İngilis dilində edilən təqdimatlar Xəzər Universitetinin rəsmi "Facebook" səhifəsindən canlı yayımlanıb. Konfrans 3 plenar iclasda öz işini davam etdirib, suallar cavablandırılıb.

**Səadət ƏLİYEVA**

## Təhsilin məzmunu və yeni tədris metodikalarından istifadənin faydası

*Ölkəmiz müstəqillik əldə etdikdən sonra qəbul etdiyi Təhsil Qanununa və sonrakı illərdə ölkə Prezidentinin sərəncamlarına əsasən həyata keçirilməsi zəruri sayılan təhsil islahatlarının direktiv və proqram sənədlərinin tələblərinə uyğun olaraq Azərbaycan Respublikası öz təhsil sistemini yaratdı.*

Təhsil islahatının sənədlərinə görə, respublikanın ümumtəhsil məktəbləri üçün tədris proqramları və dərsliklərin yenilənməsi qarşıya konkret vəzifə kimi qoyuldu. 90-cı illərə qədər proqram və dərsliklərdəki marksizm, leninizm ideyaları, kommunist ideologiyasının məfkurə məsələlərindən imtina edildi. Tədris fənlərinin məzmunu yeniləşdi. Həmin məzmuna ölkəmizin tarixini, coğrafiyasını, iqtisadiyyatını, kənd təsərrüfatını, sənayesini, milli mədəniyyətini, əxlaqını əks etdirən mövzularla yanaşı, ümumbəşəri dəyərlər də daxil edildi. Tədris fənlərinin kəmiyyət və keyfiyyətində yeniliklər öz əksini tapdı.



Təhsil işçilərinin öhdəsinə düşən əsas məsələlərdən biri də bu qanunlara uyğun tədris sistemimizi qurmaq və imkan yarandıqca yeni növ tədris metodikalarından istifadə etməkdir.

Günümüzün qlobal problemi olan pandemiya ilə əlaqədar bütün tədris sistemində baş vermiş müvəqqəti fasilə zamanı distant təhsilin faydası ölkəmizdə də aydın görünməkdədir. İstər ali, istərsə də orta təhsil müəssisələrində distant təhsilin tədrisi geniş yayılmaqdadır.

Qeyd edim ki, tədris proqramından şagird və tələbələrin geri qalmaması üçün müəllim heyəti həvəslə çalışır, öz səylərini əsirgəmirlər.

Hazırda Naxçıvan Dövlət Universitetində "Elektron təhsil şəbəkəsi və rəqəmsal multimedia" layihəsi çərçivəsində Öyrənmənin İdarə Olunması Sistemi (Learning Management System) fəaliyyətə başlayıb. Bu sistemdə hər bir tələbənin adı, semestr üzrə keçirilən fənlər və tədris planları sistemə daxil edilib, elektron mühazirə otaqları yaradılıb. Həmçinin sistemdə tələbələrə mühazirələrin, videodərslərin, kurs işi və sərbəst iş mövzularının çatdırılması, tələbələrin öyrənməsinə nəzarət üçün onlara test və ya açıqtipli sualların verilməsi də mümkündür. Qazanılan təcrübəyə əsasən qeyd edə bilərəm ki, yeni tədris metodikası ilə tələbələr daha həvəsli şəkildə xarici dil öyrənməyə maraqlıdır. Məsələn, universitetlərdə İKT imkanlarının genişliyi şərait yaradır ki, tələbələr xarici dildə danışıq səviyyəsini dərslərdə videoçarxlara baxaraq dinləmə mətnlərini daha yaxşı mənimsəsinlər. Bundan əlavə, oxu materialları, qəzet və jurnallardan, internet materiallarından istifadə onların istər nitqində, istərsə də ləhcələrinin formalaşmasında əhəmiyyətli rol oynayır. Eyni zamanda dərsin quruluşu və metodu müasir standartlara cavab verir. Tələbələr universitetdə bütün dərsi qavrayır və hətta öyrəndiklərini ətraflarında dost və yaxınlarına da öyrədirlər ki, bu da onlarda özünə əminlik yaradır. Bir sözlə, ingilis dilinin tədrisi zamanı kompüterdən istifadə etməklə, hər bir tələbə suala cavab verməklə dərs prosesində fəal iştirak edə bilər. İnteraktiv modellərlə, illüstrasiyalı materiallarla, multimedia ilə aparılan tədris təhsil prosesini yüksək səviyyəyə qaldırmaqla bərabər, həm də tələbələr üçün ənənəvi sxem və cədvəllərlə verilən dərslərdən daha maraqlı və rəngarəng olacaq. Nəticədə, tələbənin dərsə marağı artacaq və növbəti dərslərdə o özü tədqiqatçı olacaq, yəni internetdən sərbəst istifadə etməklə lazım olan materialları əldə edəcək.

Sonda onu qeyd edək ki, internet tədris materiallarının yayılması üçün xüsusi zəruri vasitədir. Distant təhsil proqramı tələbə ilə öyrədici qaynaqlar arasında əlaqə quraraq təhsili reallaşdıran bir sistemdir. Məsafəli təhsil proqramları hər hansı bir təhsil müəssisələrinə qeydli olmayan şəxslərə də təhsil imkanı yaradır.

**Nahidə HEYDƏROVA**
***Naxçıvan Dövlət Universitetinin müəllimi***

## Yanğınsöndürənlərin peşə hazırlığı artırılır



*Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin iş planına uyğun olaraq Sədərək Rayon Dövlət Yanğın Təhlükəsizliyi Şöbəsində "Gündəlik həyat fəaliyyətinin təmin edilməsi, yanğınsöndürmə xidmətinin təşkili və aparılması" mövzusunda nümunəvi məşğələ keçirilib.*

Məşğələnin əsas məqsədi növbətçi yanğınsöndürmə xidmətlərinin şəxsi heyətinə xidmətin təşkili və aparılması, növbələrin dəyişdirilməsi, şəxsi heyətin peşə hazırlığı səviyyəsini artırmaq məqsədilə yanğın xilasetmə hazırlığı üzrə normativləri yerinə yetirmək bacarıqlarını təkmilləşdirməkdən ibarət olub.

Məşğələnin planına uyğun olaraq, ilk növbədə, növbətçi yanğınsöndürmə xidmətlərinin görməli olduqları işlər ardıcıl şəkildə məşq etdirilib, fiziki idman hazırlığı üzrə çalışmalar yerinə yetirilib, şəxsi heyətdən yanğın xilasetmə hazırlığı üzrə normativlərin təlimata uyğun qəbul olunması təmin olunub. Daha sonra növbətçi yanğınsöndürmə xidməti rəisləri tərəfindən xidməti sənədlərin işlənilməsi, radiorabitə vasitələri ilə danışıq qaydaları, şəxsi heyətin "Həyəcan" siqnalı ilə çağırış qaydaları və radiotelefonçulara aid sənədlərin işlənilməsi əyani şəkildə şəxsi heyətə çatdırılıb. Təlimdən sonra yanğınsöndürmə avtomobillərinə, yanğın-texniki vasitələrə texniki qulluğun göstərilməsi, yol vərəqlərinin düzgün doldurulması üzrə aidiyyəti vəzifəli şəxslərin vəzifə borclarının yerinə yetirilməsi qaydası şəxsi heyətə öyrədilib. Yekunda maddi vəsaitlərin uçotunun, aylıq, rüblük və illik üzləşmələrin, həmçinin anbara mədaxil və məxaric olunan əşyaəmlakların qeydiyyatının aparılması üzrə anbar rəislərinin nəzəri bilikləri təkmilləşdirilib.

***Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin mətbuat xidməti***

## "İstedadlı şagirdlər" adlı albom-kataloq işıq üzü görüb

Ümummilli liderimiz Heydər Əliyevin əsasını qoyduğu dövlət təhsil siyasətinin prioritetlərindən biri də istedadlı şagirdlərin aşkarlanması, inkişafı, bilik və bacarıqlarının praktik olaraq yönləndirilməsidir. Muxtar respublikamızda bu istiqamətdə davamlı olaraq islahatlar aparılır, onların bilik və bacarıqlarının inkişaf etdirilməsi istiqamətində işlər görülür. Yaradıcılıq mərkəzlərinin və məktəbdənkənar təhsil müəssisələrinin fəaliyyəti şagirdlərin istedadlarının üzə çıxarılmasına və milli-mənəvi dəyərlərimizə bağlı bir nəsil yetişməsinə öz töhfəsini verir. Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzində şagirdlərin asudə vaxtlarının səmərəli təşkili, onların yaradıcılıq qabiliyyətlərinin və istedadlarının üzə çıxarılması üçün 12-si 2019-2020-ci tədris ilində yaradılmaqla müxtəlif profilli 39 adda dərnək fəaliyyət göstərir.

O cümlədən uşaq və yeniyetmələrin asudə vaxtlarının mənalı təşkili üçün mərkəzdə nümunəvi tədris şəraiti yaradılıb. Müxtəlif profilli dərnəklərin açılması, festivalların, rəsm, dram, əl işləri yarışlarının təşkili məktəblilərin marağını daha da artırır. Fəal şagirdlər diplom və hədiyyələrlə mükafatlandırılmaqla yanaşı, onların əl işlərinin sərgilənməsi, ictimaiyyətə təqdim olunması ilə də bağlı ardıcıl işlər aparılır. "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyində işıq üzü görən muxtar respublikamızın istedadlı şagirdlərinin əl işlərinin rəsmlərindən ibarət "İstedadlı şagirdlər "adlı albom-kataloq da həmin silsilə tədbirlərin davamıdır.

Nəfis şəkildə tərtib olunmuş, yüksək poliqrafik keyfiyyəti ilə seçilən yeni albom-kataloqun giriş hissəsində 2019-cu il oktyabrın 26-da Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzində innovativ dərnəklərin fəaliyyətə başlaması, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun həmin tədbirdəki çıxışı və müxtəlif dərnəklərin fəaliyyəti ilə tanış olması ilə bağlı fotolar öz əksini tapıb.




Yeni nəşrdə muxtar respublikamızın təhsil ocaqlarından olan şagirdlərin fotoları, onlar haqqında ümumi məlumat və əl işləri də yerləşdirilib. Albom-kataloqda, ümumilikdə, 67 şagirdin dulusçuluq, metal üzərində bədii döymə, ağac üzərində oyma, toxuculuq, bədii tikmə kimi müxtəlif yaradıcılıq nümunələri yer alır. Yeni nəşr Naxçıvanda qədim tarixə və zəngin ənənələrə malik dekorativ-tətbiqi sənət növlərinin müasir inkişaf səviyyəsinin təqdimatı, gənc istedadlara bu sənət növlərinə marağın aşılanması, onların yaradıcılıq fəaliyyətlərinin düzgün istiqamətləndirilməsi baxımından da əhəmiyyətlidir.

**Ramiyyə ƏKBƏROVA**

## Tələbələrlə onlayn görüş keçirilib



Naxçıvan Muxtar Respublikası Dövlət Vergi Xidməti tərəfindən hamiliyə götürülmüş Naxçıvan Dövlət Universitetinin İqtisad fakültəsinin İqtisadiyyat ixtisası tələbələri ilə onlayn görüş keçirilib.

Naxçıvan Dövlət Universitetinin İqtisad fakültəsinin dekanı, dosent Əşrəf Ələkbərov qeyd edib ki, "Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsi haqqında" Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2019-cu il 3 aprel tarixli Sərəncamının icrası diqqətdə saxlanılmaqla hami təşkilat və universitet arasında mütəmadi görüşlər keçirilir. Bu gün keçirilən onlayn tədbirin əsas məqsədi tələbələrin vergi qanunvericiliyi sahəsindəki bilik və bacarıqlarını daha da artırmaq və təkmilləşdirməkdən ibarətdir.

Dövlət Vergi Xidmətinin Vergi nəzarəti tədbirlərinin təşkili şöbəsinin rəisi Rəşad Əliyev "Operativ vergi nəzarəti" tədbirləri mövzusunda slaydlar vasitəsilə tələbələrə geniş məlumat verib.

Sonra mövzu ətrafında müzakirələr olub, tələbələri maraqlandıran suallar cavablandırılıb və görüşlərin mütəmadi keçiriləcəyi qeyd olunub.

***Naxçıvan Muxtar Respublikası Dövlət Vergi Xidmətinin mətbuat xidməti***

## Ümumdünya Talassemiya Günü qanvermə aksiyası ilə qeyd olunub

*Dünən Naxçıvan Muxtar Respublika Xəstəxanasında "Naxçıvan Dəmir Yolları" Məhdud Məsuliyyətli Cəmiyyəti donorlarının iştirakı ilə Beynəlxalq Talassemiya Gününə həsr olunmuş qanvermə aksiyası keçirilib.*

Bu münasibətlə keçirilən tədbirdə xəstəxananın Mərkəzi qan bankı şöbəsinin müdiri Məmmədəli Həsənov bildirib ki, Naxçıvan şəhəri və rayonlar üzrə hemofiliyalı və talassemiyalı xəstələr dispanser qeydiyyatına alınıb, onlara pensiyalar təyin olunub. Hazırda Naxçıvanda talassemiyalı xəstələrin sayının azalması ölkəmizdə bu sahədə qəbul olunan dövlət proqramının uğurlu icrasının nəticəsidir. Proqram çərçivəsində xəstələrin dərman preparatları ilə pulsuz təmin olunması, 2015-ci ilin iyun ayından başlayaraq muxtar respublikada ailə qurmaq istəyən gənclərin nikahdan əvvəl tibbi müayinələrdən keçirilməsi hepatit B və hepatit C virus xəstəliyi ilə yanaşı, talassemiyanın da profilaktikasında mühüm rol oynamaqdadır.

Hazırda hemofiliyalı və talassemiyalı xəstələr üçün qanvermə aksiyalarının keçirilməsi bu sahədə davam etdirilən tədbirlərin tərkib hissəsi olmaqla, şəfqət və humanizmin parlaq təcəssümüdür.

"Talassemiyalı xəstələrin xilası sənin qanının təhlükəsizliyindədir!" devizi altında qanvermə aksiyasında əvvəlcə donorlar arterial təzyiq, hepatit, QİÇS və digər yoluxucu xəstəliklərə görə müayinədən keçirilib. Bir neçə saat davam edən könüllü qanvermə aksiyasında 45 donordan götürülən 22,5 litr qanın qrupları müəyyənləşdirilərək ikili və üçlü torbalarda qan bankına təhvil verilib. Hazırda qan bankında xəstələrə köçürülmək üçün kifayət qədər ehtiyat yaradılıb. Tələbatdan artıq donor qanından plazma hazırlanaraq qan bankında saxlanılacaqdır.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

## Şahmatçılar arasında yoldaşlıq görüşü

***Naxçıvan Muxtar Respublikası Şahmat Federasiyası tərəfindən "Evdə qal, şahmat oyna" devizi altında internet üzərindən təşkil olunan canlı yarışlar davam edir.***

Sabah ümummilli liderimiz Heydər Əliyevin anadan olmasının 97 illiyinə həsr edilmiş Azərbaycan və Türkiyə şahmatçıları arasında internet üzərindən dostluq görüşü keçiriləcəkdir. Görüş saat $21^{00}$-da başlayacaq.

Blitz turnirdə naxçıvanlı zəka sahibləri ilə yanaşı, Mersinin "Modern", Antalyanın "Çallı Spor", "Konyaaltı Olbia", Bakının "Zirə Eko-Park", "Grand Master", İstanbulun "Galaksi", Hatayın "Şah" Şahmat klubları, həmçinin Ankaranın DSİ Gənclik və İdman Dərnəyi mübarizə aparacaq. Şahmatçılar arasında turnir *lichess.org* portalında keçiriləcək.

Qeyd edək ki, turnirdə iştirak üçün Naxçıvan Muxtar Respublikası Şahmat Federasiyasının saytından *(chess.nax.az/Turnirlər/Növbəti turnirlər/ bölməsindən)* istifadə etmək mümkündür.

**Ceyhun MƏMMƏDOV**

## İtmişdir

Şərur rayon Qarxun kənd sakini Abdullayeva Güllər Cəbrayıl qızının adına olan JN-40B inventar nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

* * *

Şərur rayon Yaycı kənd sakini Məhərrəmov Sadıq Həsən oğlunun adına olan JN-326A inventar nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

* * *

Şərur rayon Yengicə kənd sakini Hüseynov Azər Müslüm oğlunun adına verilmiş JN-753A inventar nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Əli Cabbarov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 339